UOT 332.1; 911.6

Zümrüd Cümşüd qızı NƏSİBOVA,
Azərbaycan Kooperasiya Universitetinin dissertantı,
E-mail: nasibova.zumrud22@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2024.004.033

QARABAĞ İQTİSADİ RAYONUNUN İNKİŞAFINDA DÖVLƏT DƏSTƏYİ MEXANİZMLƏRİNİN TƏTBİQİ İSTİQAMƏTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi Qarabağ iqtisadi rayonunun inkişafında dövlət dəstəyi mexanizmlərinin tətbiqi istiqamətlərinin müəyyənləşdirilməsindən ibarətdir.

Tədqiqatın metodologiyası formasında təhlil, sintez, müqayisə və ümumiləşdirmə elmi metodlarından daha çox istifadə olunmuşdur. Eyni zamanda, Qarabağ iqtisadi rayonunun inkişafında dövlət dəstəyi mexanizmlərinin tətbiqi ilə bağlı tədqiqatlar aparan alimlərin elmi əsərləri də nəzərə alınmışdır.

Tədqiqatın tətbiqi əhəmiyyəti – əldə olunan nəticələrdən müasir şəraitdə postkonflikt ərazilərin bərpa edilməsi tədbirlərinin genişləndirilməsində və iqtisadi fəaliyyət istiqamətlərinin daha səmərəli təşkilində istifadə edilməsi ilə əlaqəlidir.

Tədqiqatın nəticələri baxımından, hazırkı dövrdə Qarabağ iqtisadi rayonunda aparılan quruculuq və iqtisadiyyatın müxtəlif sahələrinin formalaşdırılması proseslərində səmərəli tədbirlər kompleksinin hazırlanmasında və məqsədli fəaliyyət proqramlarının reallaşdırılmasında istifadə etmək imkanları diqqət çəkir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – ilk növbədə Qarabağ iqtisadi rayonunun inkişafının sürətləndirilməsində dövlət dəstəyi mexanizmlərinin əhatəsinin genişləndirilməsinin vacibliyinin əsaslandırılması ilə bağlıdır. Bunun üçün Qarabağ iqtisadi rayonunun inkişaf potensialı və fəaliyyət istiqamətləri təhlil olunmuş və qiymətləndirilmişdir. Dövlət tərəfindən bərpa və dirçəliş investisiya-innovasiya layihələri üzrə müəyyənləşdirilən dəstək mexanizmlərinin mahiyyəti və məzmunu açıqlanmışdır. Dövlət büdcəsi tərəfindən maliyyələşdirilən maliyyə mexanizmlərinin əhəmiyyəti verilmişdir. Böyük Qayıdışla bağlı I Dövlət Proqramının reallaşdırılmasında dövlət dəstəyi mexanizmlərinin rolu və əhəmiyyəti əsaslandırılmış, bunlarla bağlı təkliflər hazırlanmışdır.

Açar sözlər: Azərbaycan, Qarabağ, Qarabağ iqtisadi rayonu, dövlət tənzimlənməsi, dövlət dəstəyi mexanizmləri, dövlət büdcəsi, dövlət investisiyaları, vergi güzəştləri.

Giriş

Sosial-iqtisadi inkişaf, ilk növbədə, iqtisadi sahədə hər hansı mütərəqqi dəyişiklik deməkdir. Sırf iqtisadi xüsusiyyətlərlə yanaşı, çox vaxt inkişafın sosial parametrləri də nəzərə alınır. Sosial-iqtisadi inkişafın həmişə məqsəd və ya məqsədlər sistemi ilə müəyyənləşdirilmiş istiqaməti olur. Əgər bu istiqamət müsbətdirsə, o zaman tərəqqidən, mənfidirsə, reqressiyadan və ya deqradasiyadan söhbət gedir. İqtisadi rayonların sosial-iqtisadi vəziyyəti obyektiv (makroiqtisadi vəziyyət, rayonun coğrafi mövqeyi, sahə strukturu, sosial əmək bölgüsündə tutduğu yer, təbii sərvətləri) və subyektiv amillərlə və ilk olaraq, regional səviyyədə idarəetmə metodları ilə müəyyənləşdirilir. Böhran və daimi struktur dəyişiklikləri zamanı xüsusilə aktuallaşan regional hakimiyyət orqanlarının mərkəzi funksiyası iqtisadi rayonların sosial-iqtisadi inkişafıdır. İqtisadi rayonların inkişafının təmin edilməsi regional səviyyədə reallaşdırılan iqtisadi siyasətdən asılıdır. Regional inkişafı nəzərdə tutan bu iqtisadi siyasət regionların öz aralarında və dövlətlə olan münasibətləri əks etdirir. Həmin siyasət ölkədə iqtisadi inkişafın idarə edilməsi sahəsindəki fəaliyyət kimi qəbul edilir.

Azərbaycanda iqtisadiyyatın və regionların inkişafı məqsədilə reallaşdırılan dövlət dəstəyi mexanizmlərinin tətbiqi proseslərinin təhlili

Müasir şəraitdə milli iqtisadiyyatımızın gələcək inkişafının prioritetlərini müəyyənləşdirən

regional səviyyədə reallaşdırılan inkişaf siyasətidir. O, həmçinin bu sahələrin reallaşdırılması üçün zəruri olan tədbirlərin və mərhələlərin seçimini, onların həyata keçirilmə müddətlərini və ən əsası, icraçıların müəyyənləşdirilməsini təmin edir. Burada indiki vəziyyətin qiymətləndirilməsi mərhələsində əsas strateji məqsədləri seçmək və bu məqsədlərin reallaşdırılması ilə bağlı tədbirləri müəyyənləşdirmək lazımdır. İnfrastruktur, təşkilat və resurslarla təminatda olan çatışmazlıqların aşkar edilməsi və onların aradan qaldırılması yollarının müəyyənləşdirilməsi xüsusilə əhəmiyyətlidir. Müasir dövrdə regional siyasət iqtisadi rayonların kompleks inkişafını, regionun özünün yerli məhsullarına olan tələbatının optimal şəkildə təmin edilməsini, milli iqtisadiyyatın maraqlarını nəzərə almalıdır.

Qeyd edək ki, sosial-iqtisadi inkişafa növbəti aspektlər daxildir: istehsalda və gəlirlərdə artım; ictimai şüurda baş verən dəyişikliklər; cəmiyyətin sosial, institusional və inzibati strukturlarında baş verən dəyişikliklər; adət-ənənələrdə və vərdişlərdə dəyişikliklər. Dövlət və regional hakimiyyət orqanları rayonların iqtisadiyyatına aşağıdakı kimi xüsusi təsir göstərir: dövlətin rolunu gücləndirməklə; qanunvericiliyin təkmilləşdirilməsi yolu ilə; rayonlararası proqramların maliyyələşdirilməsinin köməyi ilə; güzəştli kreditləşməni və vergitutmanı təşkil etməklə; əhalinin rifahının yaxşılaşdırılmasına yönəlmiş sosial-iqtisadi sistemlərin davamlı və tarazlı fəaliyyətini təşkil etmək üçün xüsusi büdcə və qeyri-büdcə fondları hesabına inkişafın stimullaşdırılması və s. [11, s.213]. Bu təsirlər iqtisadi rayonların inkişafının dövlət tənzimlənməsinin mahiyyətini təşkil edir. Tənzimləmə prosesində dövlət inzibati, təşkilati və iqtisadi metodların köməyi ilə ərazi inkişafına təsir göstərir. Dövlət tərəfindən tənzimləmə vasitələrinə aşağıdakılar daxildir: təşkilati və inzibati (tənzimləmə, lisenziyalaşdırma, qeydiyyat, kvota, qadağalar); tənzimləyici (normalar, standartlar, tariflər); monetar (uçot dərəcələri, kredit imtiyazları, valyuta əməliyyatlarının aparılması qaydası); fiskal (vergi dərəcələri, vergi güzəştləri); gömrük (gömrük rüsumları və imtiyazları); maliyyə (dövlət sifarişləri, kreditlər, qrantlar, subsidiyalar, subvensiyalar, kompensasiyalar, investisiyalar); planlı indikativ (proqnozlar, proqramlar, konsepsiyalar, strategiyalar və s.) [12, s.101].

Dövlət tənzimlənməsi öz təsirində dövlət qanunları, Prezidentin fərmanlarını və normativ aktlarını, hökumətin və nazirliklərin qərarlarını tətbiq edir. İqtisadi rayonların inkişafının dövlət tənzimlənməsi dövlət, regionlararası, regional və yerli səviyyələrdə hazırlanmış ərazi inkişafı strategiyasına uyğun olaraq və regional iqtisadi və sosial siyasətin əsas prioritet sahələri nəzərə alınmaqla həyata keçirilir.

Hesab edirik ki, dövlət tənzimləmə tədbirlərinin reallaşdırılmasına nəzarət etmək üçün daimi monitorinqlərin aparılması vacibdir. Dövlət tənzimlənməsi regionun fəaliyyətinə geniş çeşidli tədbirlərin, prosedurların, mexanizmlərin və hərəkətlərin tətbiqi yolu ilə reallaşdırılır. Əvvəla, bu, dövlət büdcəsindən və qeyri-büdcə fondlarından maliyyələşdirilən regional sosial-iqtisadi proqramların reallaşdırılması, əhalinin etnik-mədəni ehtiyaclarının dəstəklənməsi, bölgədə ekoloji tədbirlərin görülməsi, sadələşdirilmiş vergi rejiminin tətbiq edilməsi və s.-dir. Regional iqtisadi siyasət rayonların iqtisadi inkişafının dövlət tənzimlənməsi sisteminin əsasını təşkil edir ki, bu da həmin rayonlarda yeni təsərrüfat formasının təşkili ilə təmin edilə bilər [10, s.113]. Hazırda Azərbaycan daha mühüm vəzifəni yerinə yetirməyə başlamışdır ki, bu, azad edilmiş ərazilərin bərpası və dirçəldilməsidir. Həmin ərazilərdə istehsal sahələrinin və infrastrukturun bərpası və dirçəldilməsi Azərbaycan üçün strateji əhəmiyyət daşıyır. Odur ki, Qarabağın bərpa olunması və dirçəldilməsi ilə bağlı problemlərin öyrənilməsi və qarşıya qoyulan məqsədlərin elmi, iqtisadi və sosial amillər baxımından obyektiv əsaslandırılması zəruridir. Bu gün dövlət qarşısında duran əsas vəzifələr sırasına sənayenin və kənd təsərrüfatının inkişafının sürətləndirilməsi məqsədilə Azərbaycanın regionlarında mövcud potensialın səmərəli istifadəsi, bu məsələlərdə sahibkarlıq subyektlərinə dəstək olmaq, əhalinin yaşayışını yaxşılaşdırmaq, yoxsulluq problemini həll etmək və ölkəni iqtisadi baxımdan hərtərəfli inkişaf etdirməkdir.

Məlumdur ki, Azərbaycanın istənilən iqtisadi rayonunun özünəməxsus xüsusiyyətləri və ixtisaslaşmış sahələri vardır. Həmin iqtisadi rayonlarda müxtəlif amillər, o cümlədən təbii, coğrafi, iqtisadi və digər amillər diqqəti daha çox cəlb edir. Əhalinin məşğulluq xüsusiyyətləri, onların adət

və ənənələri və milli tərkibi də mühüm şərtlərdən hesab olunur. Yeni bölgü əsasında müəyyənləşdirilmiş iqtisadi rayonların planlaşdırılmış və nizamlı şəkildə idarə olunması, burada ehtiyac duyulan prioritet layihələrin, dövlət tərəfindən maliyyə və investisiya mexanizmlərinin hazırlanması və reallaşdırılması, digər maliyyələşdirmə mənbələrinin inkişafı, əhalinin məşğulluğunun və iqtisadi fəallığının artırılması məqsədilə şəraitin, sosial infrastrukturun yaradılması, sahibkarlığın təşviqi və əlverişli biznes mühitinin yaradılması xüsusilə əhəmiyyətlidir.

Fikrimizcə, Azərbaycanın hərtərəfli inkişafı üçün dövlət regional proqramları xüsusi rol oynayır. Həmin dövlət proqramları Azərbaycanın iqtisadi baxımdan qüdrətli ölkəyə çevrilməsi, iqtisadiyyatının hərtərəfli inkişafının təmin edilməsi strategiyasının reallaşdırılmasında çox mühüm mərhələlərdir. Dövlət proqramlarının əsas məqsədi iqtisadi rayonlarda mövcud potensialdan səmərəli istifadə ilə ölkə iqtisadiyyatının müxtəlif sahələrinin inkişafına nail olmaq, istehsal müəssisələrinin fəaliyyətini daha da genişləndirmək, ixracyönümlü məhsulların istehsalını stimullaşdırmaq, yerli sahibkarlığın inkişafı hesabına əhalinin həyat və məşğulluq səviyyəsini yüksəltmək, xüsusilə gənclərin ictimai faydalı məşğulluğunu artırmaq və ölkə iqtisadiyyatının dinamik inkişafını təmin etməkdən ibarətdir [8, s.64].

İqtisadi rayonların inkişafı məqsədli dövlət proqramlarının hazırlanması və reallaşdırılması səviyyəsindən asılıdır. Dövlət proqramlarının əsas məqsədi qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələndirilməsi, regionların inkişafının sürətləndirilməsi, xüsusilə kənd yerlərinin inkişafı ilə bağlı mövcud infrastrukturların təkmilləşdirilməsi və s. olub. Hazırda 2019-2023-cü illəri əhatə edən ölkənin regionlarının inkişafını nəzərdə tutan Dövlət Proqramı reallaşdırma mərhələsindədir. Bu proqramın məqsədi kənd yerlərinin inkişafı sahəsində görülən işlərin növbəti illərdə də davam etdirilməsi, o cümlədən sosial xidmətlərin və infrastruktur sahələrinin daha da yaxşılaşdırılması, müxtəlif iqtisadi rayonlarda yaşayan əhalinin məşğulluğunun və rifah halının yüksəldilməsidir. Bunlarla bərabər, ölkənin iqtisadi rayonlarının inkişafının sürətləndirilməsi və bu proseslərdə aqrar sahənin potensialından səmərəli istifadəni nəzərdə tutan növbəti onillik üçün prioritetlər müəyyənləşdirilib. Həmin prioritetlər 2022-ci ilin 2 fevral tarixində təsdiqlənmiş “Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri” adlı sənəddə öz əksini tapıb [2]. Eyni zamanda, həmin prioritetlərdən irəli gələn vəzifələrin reallaşdırılması məqsədilə “Azərbaycan Respublikasının 2022-2026-cı illər üçün Sosial-İqtisadi İnkişaf Strategiyası” hazırlanaraq Prezidentin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir [3]. Bu mühüm və konseptual sənədlərin reallaşdırılması Azərbaycanın iqtisadi rayonlarının inkişafı problemlərinə yanaşmaları prioritet səviyyəyə qaldıracaqdır. Bundan əlavə, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur rayonlarının kənd təsərrüfatı sahəsinin inkişafı üçün potensialı yaxın gələcəkdə daha yaxşı nəticələr verəcəkdir. İqtisadi zonaların yenidən qurulması, onların sosial-iqtisadi və kompleks inkişafının təmin edilməsi yaxın gələcəkdə ölkənin digər iqtisadi rayonlarında da idarəetmə mexanizmlərinin təkmilləşdirilməsinə və əlavə tədbirlərin görülməsinə ciddi əsaslar yaradacaqdır. Bu prosesləri dərinləşdirmək üçün Azərbaycanın iqtisadi rayonlarında mühüm ərzaq məhsullarının məhsuldar sortlarının yetişdirilməsi, seleksiya işlərinin davam etdirilməsi, bu sahədə qabaqcıl dünya təcrübəsinin tədqiqi, öyrənilməsi və tətbiqi zəruridir.

Qarabağ iqtisadi rayonunun inkişafının sürətləndirilməsi üçün dövlət dəstəyi mexanizmlərinin səmərəli tətbiqi məsələləri

Qarabağın davamlı və dinamik inkişafı baxımından iqtisadi fəaliyyət sahələrinin modelləşdirilməsi və sahibkarlığın inkişafı dövlət siyasətinin tərkib hissəsidir. Məsələn, Sahibkarlığın İnkişafı Fondunun vəsaitlərinin Qarabağın səmərəli inkişafına xərclənməsinin prioritet istiqamətləri müəyyənləşdirilmiş, bu sahələrə maraqlı və potensial investorların cəlb edilməsinin zəruriliyi əsaslandırılmışdır. Yaxın gələcəkdə Qarabağ iqtisadi rayonunda yüksək texnologiyalı sahələrin və sahibkarlığın inkişafı məqsədilə daha səmərəli mexanizmlərin hazırlanması təmin ediləcəkdir. Bunlara məhsuldar və çevik texnologiyalara əsaslanan istehsal və emal sahələrinin yaradılması, yaradıcı və səmərəli xidmət göstərən müəssisələrin fəaliyyətinin təşkili daxildir. Bütün bunlar Qarabağda inkişaf üçün dinamik və məhsuldar şərait yaradacaqdır [6, s.70].

Hazırda Qarabaq iqtisadi rayonuna daxil olan rayonlarda, o cümlədən, Ağdamda, Füzulidə, Şuşada, Tərtərdə və digər rayonlarda böyük quruculuq işləri gedir. Ağdam rayonu Sovetlər birliyi dövründə həmin iqtisadi rayonun əsas mərkəzlərindən biri olmuşdur. Şəhərin kifayət dərəcədə inkişaf etmiş infrastrukturu var idi. Yenidən Ağdamdakı infrastrukturların bərpası işləri gedir. Ağdamda kənd təsərrüfatına yararlı olan torpaqların məhsuldarlığına və keyfiyyətinə görə xüsusi çəkisi ölkəmizin digər rayonları ilə müqayisədə yüksəkdir. Ərazinin əlverişli torpaq-iqlim xüsusiyyətləri kənd təsərrüfatının əsas sahələrinin, o cümlədən heyvandarlığn və əkinçiliyin yüksək və səmərəli şəkildə inkişafına imkan verir. Torpaqlarının təqribən 92%-i əkinə yararlıdır. Bu, rayonun böyük kənd təsərrüfatı potensialından xəbər verir. Bu potensial komponentlərə və ənənəvi fəaliyyət sahələrinə əsaslanaraq Ağdamın güclü və perspektivli iqtisadi potensiala malik olduğu qənaətinə gəlmək olar [5, s.153]. Ağdam rayonu tezliklə Azərbaycan iqtisadiyyatına özünün xüsusi töhfəsini verə biləcəkdir. Bunlarla bərabər, Aqdamda iqtisadiyyatın digər sahələrinin, xüsusilə də tikinti materialları və turizm sənayesinin inkişafı üçün də güclü imkanlar mövcuddur. Bu rayonda sənaye və kənd təsərrüfatını inkişaf etdirməklə investorlar üçün cəlbedici əraziyə çevirmək mümkün olacaqdır [4, s.90].

Qarabağın dirçəldilməsində mühüm addım onun təhlükəsiz zonaya çevrilməsidir. Odur ki, bu istiqamətdə dövlət tərəfindən tədbirlər görülməli və gücləndirilməlidir. Belə olduqda, həmin iqtisadi rayonu turizm üçün də əlverişli zonaya çevirmək mümkün olacaq və investisiya cəlbediciliyi artacaqdır. Qarabağda turizmin inkişafını müəyyənləşdirən amil məhz regionda təhlükəsizliyin təmin edilməsidir. Əhalinin geri qayıtması və infrastrukturların yaradılması da əhəmiyyətlidir [1, s.44]. Yaxın gələcəkdə Füzuli şəhərində də reallaşdırılacaq infrastruktur layihələri, o cümlədən nəqliyyat-logistika layihələri ərazinin inkişafının əhəmiyyətli dərəcədə artmasına, kənd və qəsəbələrin abadlaşmasına səbəb olacaq. Bu təsir təkcə Füzuli şəhərində deyil, Qarabağın və bütövlükdə ölkənin sosial-iqtisadi inkişafında əhəmiyyətli dərəcədə özünü göstərəcəkdir. Beləliklə, region güclü iqtisadi resurslara, o cümlədən bir sıra ənənəvi və yeni iqtisadi sahələrin intensiv inkişafına imkan verən potensiala malikdir. Füzuli şəhəri kənd təsərrüfatının ənənəvi sahələrinə, o cümlədən, əkinçilik, üzümçülük, heyvandarlıq, bitkiçilik və digər sahələrin inkişaf etdirilməsi baxımından böyük potensiala sahibdir. Digər sənaye sahələrinin də, xüsusilə tikinti və emal sənayesinin inkişafı üçün də Füzulidə kifayət qədər potensial vardır [4, s.91]. Vətən müharibəsindən sonrakı yenidənqurma ölkəmizin ümumi inkişaf strategiyasının tərkib hissəsi kimi Qarabağın reinteqrasiyası və dəyər zəncirinə qoşulması yolu ilə reallaşdırılmalıdır. Qarabağda beynəlxalq ekspertlərin cəlb edilməsi ilə su, torpaq, meşə ehtiyatları, əmlak və mədəni sərvətlər, faydalı qazıntılar və ən vacibi isə mülki şəxslərə dəyən ziyan hesablanır və iddialar qaldırılır. Qarabağın inkişafı ilə bağlı strategiya müxtəlif səviyyələrdə qısa, orta və uzunmüddətli fəaliyyətləri əhatə edir. Strategiyanın reallaşdırılması məqsədilə idarəetmənin təşkili və dövlət siyasətinin makroiqtisadi, sosial, fiskal, monetar və digər alətlərindən istifadə etmək çox vacibdir.

Qarabağda mədənçıxarma, metallurgiya, yeyinti, emal, turizm sənayeləri, meyvəçilik, tərəvəzçilik, pambıqçılıq, quşçuluq, heyvandarlıq, arıçılıq, taxılçılıq, üzümçülük, əczaçılıq, tikinti materiallarının istehsalı kimi sahələrə qoyulan investisiyalar qeyri-neft ixracının və idxalın əvəzlənməsinin artması, dəyər zəncirlərinə qoşulması baxımından əhəmiyyətlidir. Yenidənqurma işləri iqtisadi təhlükəsizlik, o cümlədən ərzaq təhlükəsizliyinin təminatı baxımından da mühüm rol oynayacaqdır. Sənaye parkları və rayonları, aqro və texnologiyalar parkları və digər investisiya təşviqi mexanizmləri də daxil olmaqla, bu sahələrə investisiyaların təşviqi üçün müxtəlif mexanizmlərdən istifadə edilə bilər. Ümumilikdə, Qarabağın resursları, strateji aktivləri, səmərəliliyi və investorların marağını cəlb edə biləcək bazarları var [9, s.70]. Hazırda Qarabağın bərpası, onun gələcək inkişafını təmin edə biləcək zəruri istehsal sahələrinin və infrastrukturların yaradılması və həmin ərazidən məcburi köçkün düşmüş əhalinin geri qaytarılması istiqamətində genişmiqyaslı işlər həyata keçirilir.

Müasir dövrdə Qarabağ bölgəsi böyük tikinti meydançasını xatırladır. Bir tərəfdən yeni infrastruktur layihələrinin reallaşdırılması üçün etibarlı əsaslar qoyulur, digər tərəfdən isə beynəl-

xalq standartlar əsasında hazırlanmış müasir layihələr istifadəyə verilir. Qarabağda iqtisadiyyatın dövlət-özəl əməkdaşlığı əsasında aşağıdakı altı əsas istiqamət üzrə inkişaf edəcəyi gönlənilir: Mədən sənayesi; Yüngül və qida sənayesi; Kənd təsərrüfatı sahəsi; "Yaşıl Enerji"; Nəqliyyat və anbar logistikası; Turizm [7, s.24]. Aparılan sistem təhlilinə əsasən hesab edirik ki, Qarabağda yeni və müasir sahibkarlıq subyektlərinin yaradılması aşağıdakı təşkilati, texniki və sosial-iqtisadi üstünlüklərin əldə olunmasına töhfə verəcək: Davamlı rəqabət qabiliyyəti çərçivəsində problemlərin və maraqların birgə həlli; Əmlakdan rasional istifadə; İstehsal və xidmət sahələrində bələdiyyələrin rolunun genişləndirilməsi; Yeni texnikanın, texnologiyanın və İKT-nin tətbiqinə əlverişli şəraitin yaradılması; Məqsədli innovasiya layihələrinin birgə həyata keçirilməsi; İstehsal, enerji və nəqliyyat xərclərinin minimuma endirilməsi; İstehsal prosesində və maddi-texniki təchizatda qənaət prinsipinin tətbiqi; Maliyyə imkanlarının və ixrac potensialının genişləndirilməsi; İnnovasiyaların idarə edilməsinin mütərəqqi üsullarının geniş tətbiqi; Kənd təsərrüfatı texnologiyaları, sanitar və fitosanitar xidmətlərin vahid məkan və ərazidə kombinasiyasının həyata keçirilməsi; Məhsulun istehsalının, emalının və satışının yekun nəticəsi nəzərə alınmaqla əməyin stimullaşdırılması; Qarabağda xarici və birgə müəssisələrin, ərazi klasterinin, regional biznes assosiasiyalarının, maliyyə-sənaye qruplarının, biznes inkubatorların, startapların və digərlərinin təşkili, o cümlədən qadın sahibkarlığının inkişafı və s.

Nəticə

Beləliklə, Vətən müharibəsindən sonrakı dövrdəki real vəziyyətə əsaslanaraq, Azərbaycan yaxın gələcəkdə Qarabağın sosial-iqtisadi inkişafının və dirçəlişinin təmin edilməsini qarşısına məqsəd qoyub. Bu mürəkkəb vəzifəni sürətləndirmək üçün daha əsaslı elmi-iqtisadi yanaşmalar və praktiki mexanizmləri əks etdirən təkliflər hazırlanmalı və diqqətin aşağıdakılara yönəldilməsi səmərəli ola bilər:

- Dövlət və cəmiyyət arasında sosial məmnunluq üçün vahid platforma və mühitə uyğun olaraq, müharibədən sonrakı şəraitdə həyata keçirilməli olan tədbirlərin və məqsədlərin müəyyənləşdirilməsi;
- Vətən müharibəsindən sonrakı şəraitdə mövcud problemlərin həlli ilə bağlı hər bir istiqamət üzrə perspektivlər və məqsədlər müəyyən edilməklə məqsədli dövlət proqramlarının hazırlanması və fəaliyyət mexanizmlərinin tətbiqi;
- Müharibə və münaqişələrin, humanitar, sosial-iqtisadi və ekoloji fəlakətlərin nəticələrinin obyektiv qiymətləndirilməsi və öyrənilməsi, onlara lazımi hüquqi qiymət verilməsi, bu barədə ictimaiyyəti və beynəlxalq təşkilatları məlumatlandırmaq üçün sistemli və davamlı tədbirlərin görülməsi, hərbi cinayətkarların cəzalandırılması üçün beynəlxalq məhkəmələrdə ciddi iş aparılması;
- Qarabağın dirçəldilməsi prosesinin sürətləndirilməsi məqsədilə və rayonun sosial-iqtisadi inkişafının məqsədləri nəzərə alınmaqla maliyyə təminatının və investisiyaların cəlb edilməsinin zəruri mexanizmlərinin həlli istiqamətində təsirli və səmərəli tədbirlərin görülməsi;
- Ərazilərin bərpası və inkişafı ilə məşğul olan yerli və xarici şirkət və müəssisələrin fəaliyyəti üçün şəffaf və stimullaşdırıcı investisiya və innovasiya mühitinin, Qarabağın bərpası və inkişafı üzrə işlərin davamlı maliyyələşdirilməsi mexanizmlərinin yaradılması;
- Qarabağda “tikinti bumu” qaçılmazlığını və ümumilikdə tikinti materiallarına tələbatın sürətlə artdığını nəzərə alaraq, həmin iqtisadi rayonda tikinti materiallarının bir neçə istiqaməti üzrə klasterlərin yaradılması;
- Qarabağın turizm və rekreasiya potensialına əsaslanaraq, xüsusi güzəştlər paketi ilə turizm və rekreasiya zonalarının təşkili;
- Qarabağın yüksək kənd təsərrüfatı potensialına əsaslanaraq, yerli tələbatların ödənilməsi ilə yanaşı, ixracyönümlü aqrar-sənaye parklarının yaradılması;
- Qarabağ iqtisadi rayonunun güclü iqtisadi potensialını nəzərə alaraq, həmin potensialdan səmərəli istifadənin təmin edilməsi üzrə dövlət proqramlarının hazırlanması və s.

ƏDƏBİYYAT

1. Adıgözəlova Ş. Ağdamda turizmin yenidən təşkili. “Qarabağda yeni iqtisadiyyat quruculuğu: Ağdamdan inkişaf impulsları” I Beynəlxalq elmi-praktik konfrans"ın materialları Ağdam-Bakı – 16-17 sentyabr 2021-ci il, s.41-45. https://qdf.gov.az/media/kitablar/agdamda-inkishaf-impulslari/Kitabin-tam-versiyasi.pdf.
2. Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri. AR Prezidentinin 02 fevral 2022-ci il tarixlil Sərəncamı ilə təsdiq edilmişdir.
3. Azərbaycan Respublikasının 2022-2026-cı illər üçün Sosial-İqtisadi İnkişaf Strategiyası”. AR Prezidentinin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
4. Əliyev Ş.T. Ağdam və Füzuli rayonlarında postkonflikt ərazilərinin intensiv inkişafının Qarabağın dirçəldilməsində strateji əhəmiyyəti. “Geostrategiya” jurnalı, Bakı, sentyabr, 2022, №4(70). S.89-93.
5. Əliyev Ş.T. Ağdamda yeni iqtisadiyyat quruculuğunun strateji aspektləri və prioritetləri. “Qarabağda yeni iqtisadiyyat quruculuğu: Ağdamdan inkişaf impulsları” I Beynəlxalq elmi-praktik konfrans"ın materialları Ağdam-Bakı – 16-17.09.2021, s.151-156. https://qdf.gov.az/media/kitablar/agdamda-inkishaf-impulslari/Kitabin-tam-versiyasi.pdf.
6. Əliyev Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri. “Geostrategiya” jurnalı, Bakı, sentyabr, 2021, №4. S.67-72.
7. Алиев Т.Н. Восстановление экономики Карабаха и Восточного Зангезура на основе коцепций устойчивого и инклюзивного развития. The scientific heritage, № 82 (2022), с.19-33.
8. Гамбарова, Р. М. Роль региональных государственных программ в развитии экономики Азербайджана / Р. М. Гамбарова // Вестник Казахского гуманитарно-юридического инновационного университета. – 2019. – № 2(42). – С. 63-67.
9. Гасымлы, В. Карабах и Восточный Зангезур будут новым драйвером экономического роста в Азербайджане / В. Гасымлы // Интерактивная наука. – 2022. – № 3(68). – С. 69-70.
10. Гафуров И.Р. Инновационные кластеры и социально-экономическое развитие регионов. Анализ методических подходов: моногр. / И.Р. Гафуров, В.Л. Васильев, Р.Р. Кашбиева. - М.: Анкил, 2012. - 292 с.
11. Осадчая Г. И. Социология социальной сферы: учебное пособие для высшей школы. Изд. 4-е, перераб., доп. М.: Академический проект, 2018. – 334 с.
12. Ходусов А.А. Проблемы социальной политики в условиях рыночной экономике [Текст] / А.А. Ходусов // Вестник Московского государственного областного университета. Серия: Юриспруденция. — 2017. — № 4. — С. 100-107.

Зумруд Джумшуд кызы Насибова,
диссертант Азербайджанского Университета Кооперации,
E-mail: nasibova.zumrud22@gmail.com

Направления применения механизмов государственной поддержки в развитии Карабахского экономического региона

Резюме

Цель исследования – определить направления применения механизмов государственной поддержки в развитии Карабахского экономического региона.

Методология исследования – больше использовались научные методы анализа, синтеза, сравнения и обобщения. При этом были приняты во внимание и научные труды учёных, проводящих исследования по применению механизмов государственной поддержки в развитии Карабахского экономического региона.

Практическое значение исследования связано с использованием полученных результатов при расширении мероприятий по восстановлению постконфликтных территорий и более эффективной организации экономической деятельности в современных условиях.

Результаты исследования – были подведены итоги о возможностях использования эффективных мер при подготовке комплекса и реализации целевых программ действий в процессах формирования различных сфер строительства и экономики в Карабахском экономическом регионе в текущий период.

Оригинальность и научная новизна исследования – связана, прежде всего, с обоснованием важности расширения механизмов государственной поддержки в ускорении развития Карабахского экономического региона. Для этого был проанализирован и оценён потенциал развития Карабахского экономического региона и направления действий в этой сфере. Рассмотрена сущность и содержание определяемых государством механизмов поддержки восстановления и возрождения инвестиционно-инновационных проектов. Отмечено значение инвестиционных механизмов, финансируемых за счёт государственного бюджета. Обоснованы роль и значение механизмов государственной поддержки в реализации I Государственной программы, связанной с «Великим возвращением», и подготовлены соответствующие предложения.

Ключевые слова: Азербайджан, Карабах, Карабахский экономический район, государственное регулирование, механизмы государственной поддержки, государственный бюджет, государственные инвестиции, налоговые льготы.

Zumrud Jumshud Nasibova,
doctoral student of Azerbaijan University of Cooperation,
E-mail: nasibova.zumrud22@gmail.com

Directions of application of state support mechanisms in the development of Karabakh economic region

Summary

The purpose of the research is to determine the directions of application of state support mechanisms in the development of Karabakh economic region.

Research methodology - scientific methods of analysis, synthesis, comparison and generalization were used. At the same time, the scientific works of scientists conducting researches on the application of state support mechanisms in the development of Karabakh economic region were also taken into consideration.

The practical significance of the research is related to the use of the obtained results in the expansion of measures for the restoration of post-conflict territories and more effective organization of economic activity in modern conditions.

The results of the research the results were summarized on the possibilities of using effective measures in the preparation of the complex and implementation of targeted action programs in the processes of formation of various spheres of construction and economy in the Karabakh economic region in the current period.

The originality and scientific novelty of the research – is primarily related to the substantiation of the importance of expanding the mechanisms of state support in accelerating the development of the Karabakh economic region. For this purpose the potential of development of Karabakh economic region and directions of actions in this sphere were analyzed. The essence and content of the state-defined support mechanisms for the recovery and revitalization of investment and innovation projects were considered and evaluated. The importance of investment mechanisms financed by the state budget is noted. The role and significance of the state support mechanisms in the implementation of the I State Program related of the "Great Return" are substantiated and relevant proposals are prepared.

Key words: Azerbaijan, Karabakh, Karabakh economic region, state regulation, state support mechanisms, state budget, state investments, tax benefits.